# Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah

## Bu sahədə görülən işlər hər bir vətəndaşın sosial-iqtisadi həyat şəraitinin daha da yaxşılaşdırılmasına hesablanıb

**Telefondan çıxan siqnal səsi SMS gəldiyini xəbər verirdi. Ulduz xala gələn SMS-i oxuduqda, gözlərinə inanmadı. Mesajda onun pensiyasına dair məlumat yazılmışdı: "Hörmətli vətəndaş. Siz 1 iyul 2019-cu ildən pensiyaya çıxmaq hüququ qazanırsınız. Sizə 230 manat məbləğində pensiya təyin olunur. Pensiya kartını əldə etmək və daha ətraflı məlumat almaq üçün göstərilən ünvana müraciət edə bilərsiniz. Hörmətlə, DOST-unuz". Ulduz Əzimova çox təəccübləndi. Çünki hələ iki həftə sonra pensiyanın təyinatı üçün müvafiq quruma getməyi planlaşdırırdı...**

Bu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyəti ilə bağlı çəkiləcək maarifləndirici videoçarxın ssenarisi deyil, yaxın gələcəkdə yaşlı vətəndaşların hər birinin qarşılaşacağı bir durumdur. Çünki sosial müdafiə sistemi ilə əlaqədar nəzərdə tutulan dəyişikliklərə görə, bundan sonra pensiya təyinatı tamamilə avtomatlaşdıracaq. Belə ki, pensiya yaşının çatması, stajın hesablanması, pensiya məbləğinin təyin olunması avtomatik həyata keçiriləcək və bu barədə vətəndaşlara SMS-lə məlumat veriləcək.

Azərbaycanda əhalinin sosial müdafiə sistemi bu inkişaf səviyyəsinə gəlib çatana qədər uzun yol keçib. Bu dövlətçilik ənənəsinin tarixi bir əsrdən də uzağa gedib çıxır. Belə ki, ölkəmizin ərazisində əmək münasibətlərinə dair ilk akt 1903-cü ildə ("İstehsalatda bədbəxt hadisələrə görə işəgötürənlərin məsuliyyəti haqqında" qanun) qəbul edilib. XX əsrin əvvəllərində Rusiya imperiyası dövründə də vətəndaşların hüquqlarını müdafiə edən bir neçə qanun qəbul edilib, lakin onların tətbiqi mümkün olmayıb.

### BİR ƏSRDƏN BÖYÜK TARİX - HƏR ŞEY NECƏ BAŞLADI

1918-ci il mayın 28-də Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Vətəndaşların rifahını düşünən yeni hökumətin əsas fəaliyyət istiqamətlərindən biri də sosial siyasət idi. Həmin dövrdə pensiya məsələləri üzrə iki əsas qərar qəbul edilmişdi. 1918-ci ilin avqustunda qəbul edilən qərara əsasən, təqaüdə çıxan şəxslərə xidmət illərinə görə pensiya təyin olunması nəzərdə tutulurdu. AXC-nin üçüncü hökuməti dövründə əmək münasibətləri və bununla bağlı digər məsələləri tənzimləmək məqsədilə Əmək Nazirliyi təsis olundu. Qəribə olsa da, bir əsr qabaqkı dövrdə hökumət müasir dövr üçün də aktual olan məsələlərlə məşğul idi: fəhlə və sahibkarlar arasında münasibətlərin tənzimlənməsi, əməyin mühafizəsi, zəhmətkeşlərin maddi vəziyyətinin yaxşılaşdırılması, inflyasiya ilə əlaqədar müavinət və əmək haqlarının, eləcə də hökumət qulluqçuları və müəllimlərin əmək haqlarının artırılması, yaşayış minimumunun qaldırılması haqqında qanunlar qəbul edilirdi. Hətta həmin dövrdə də bu nazirlik qaçqınların problemlərinin həllinə çalışırdı.

Azərbaycanın dövlət müstəqilliyinə son qoyulduqdan sonra ölkədə sovet hakimiyyəti bərqərar oldu, Azərbaycan SSR Xalq Əmək Komissarlığı yaradıldı. Bu komissarlıq ictimai təminat sistemini yaxşılaşdırmaq və təkmilləşdirmək, əlil və işçi vətəndaşlara imtiyazlar vermək kimi işləri yerinə yetirirdi. Sovet hakimiyyəti dövründə fəhlə və qulluqçuların sosial təminatı ilə əlaqədar bir sıra qərarlar qəbul olunmuşdu.

### DÜNƏNİMİZ - SOSİAL MÜDAFİƏ SİSTEMİNDƏ KÖKLÜ DƏYİŞİKLİK

Nəhayət, Azərbaycan ikinci dəfə öz dövlət müstəqilliyini qazandı. Bundan sonra hər bir sahədə dövlət təsisatlarının yenidən təşkilinə başlanıldı. Azərbaycan Prezidentinin 10 dekabr 1992-ci il tarixli Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yaradıldı.

Müstəqilliyin ilk illərində ölkədə ağır sosial-iqtisadi və siyasi gərginlik hökm sürürdü. Yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra sosial müdafiə sistemində köklü dəyişikliyə nail olundu: əlil və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, əlillərin tibbi-sosial reabilitasiyası sisteminin müasir tələblər səviyyəsində qurulması, əlillərin minik avtomobilləri ilə təminatı, pensiya və müavinətlərin artırılması, əhalinin məşğulluğunun gücləndirilməsi, əhalinin müəyyən təbəqələrinə müavinətlərin verilməsi və s. istiqamətlərdə önəmli tədbirlər həyata keçirildi. Prezident İlham Əliyev tərəfindən bu kursun uğurla davam etdirilməsi isə ölkədə yeni tərəqqi mərhələsinin əsasını qoydu.

### BU GÜNÜMÜZ - ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ GÜCLƏNDİRİLİR

Bu gün əhalinin sosial müdafiəsinin gücləndirilməsi, aztəminatlı əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində mühüm nailiyyətlər əldə edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ölkə rəhbərliyi



tərəfindən qoyulan tapşırıqları uğurla yerinə yetirir, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində mütəmadi addımlar atır.

Bu gün ölkəmizdə əhalinin 13 faizdən bir qədər artıq hissəsi - 1 milyon 309 min nəfər pensiya alır. Təqaüdçülərin əksəriyyəti (58,5 faizi) yaşa görə pensiyaya çıxıb. 11,5 faiz ailə başçısını itirdiyinə görə, qalanları isə əlilliyə görə pensiya alanlardır. Azərbaycanda əlillərin sayı 620 minə yaxındır. 2018-ci ildə pensiyaların orta aylıq məbləği 8,4 faiz artaraq 221 manata çatıb. O cümlədən, yaşa görə təqaüdlərin orta aylıq məbləği 9 faiz çoxalaraq 249 manat təşkil edib.

Statistika da göstərir ki, Azərbaycanda aztəminatlı qruplar, yaşlılar, həssas təbəqələr daim qayğı ilə əhatə olunub. İndiyədək şəhid ailələrinin və əlilliyi olan şəxslərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə 6063 mənzilin verilməsi haqqında qərar qəbul edilib və artıq 5.600 mənzil sahiblərinə təqdim olunub.

**Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli** bildirib ki, ilin sonunadək Abşeron rayonunun Mehdiabad qəsəbəsində 72 mənzilin, Qaradağ rayonunun Lökbatan qəsəbəsində 200 mənzilin təqdim olunması planlaşdırılır. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib. Növbəti ildə şəhid ailələrinə və Qarabağ əlillərinə 500 mənzil və 300 fərdi evin verilməsi nəzərdə tutulub. 2018-ci ildə şəhid ailələri və əlillərə 300 mənzilin alınması üçün əlavə 20 milyon manatın ayrılması barədə qərar qəbul edilib.

Bundan başqa, şəhid ailələrinin sosial təminatının yaxşılaşdırılması məqsədilə onlara aylıq sosial müavinətlər ödənilir, övladları dövlət hesabına təhsil alır, istirahət göndərişləri ilə təmin olunurlar. 2018-ci ildə özünüməşğulluq proqramına qoşulan şəhid ailələrinin sayı isə 158 olub. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin edilirlər. İndiyədək onlara minlərlə avtomaşın verilib.

### ŞƏHİD VƏRƏSƏLƏRİ MÜAVİNƏTLƏRİNİ ALIRLAR

Bu istiqamətdə daha bir önəmli addım dövlət başçısının 2018-ci il 19 aprel tarixli, 1 nömrəli Fərmanına əsasən şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi prosesin tam şəffaf, qanunauyğun və vətəndaş məmnunluğuna səbəb olacaq səviyyədə həyata keçirilməsi üçün bütün səylərini səfərbər edib. Hazırda Prezident İlham Əliyevin müvafiq fərmanı uğurla həyata keçirilməkdədir.

Nazirliyin məlumatına görə, ümumilikdə 9500-dən artıq şəhid hərbi qulluqçunun vərəsəsinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi nəzərdə tutulub. Bu günədək 2300-dən çox şəhid hərbi qulluqçunun 3 mindən artıq vərəsəsinə birdəfəlik ödəniş verilməsi barədə qərarlar qəbul edilib.

Şəhid hərbi qulluqçuların vərəsələri ölkə başçısının bu addımını yüksək qiymətləndirir, dövlət qayğısını hər zaman hiss etdiklərini deyirlər.

Birdəfəlik müavinəti alanlardan biri də Əliyevlər ailəsidir. Bu ailənin kiçik oğlu Emin Əliyev 1993-cü il iyunun 12-də şəhid olub. Daxili Qoşunların tərkibində Ağdam-Ağdərə istiqamətində vuruşan Emin strateji əhəmiyyətli yüksəkliklərin ələ keçirilməsində şücaətinə görə dəfələrlə təşəkkürnamə alıb. Prezidentin sözügedən fərmanından sonra Əliyevlər ailəsi qısa zamanda sənədlərini hazırlayıb Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edib. Müsbət cavab alan şəhid anası İbadət Əliyeva bunu dövlətin ciddi dəstək və qayğısının göstəricisi kimi qiymətləndirir. O, deyir ki, aldığı müavinəti xərcləyəcəyi istiqamət də şəhid oğlunun adı ilə rəmzi olaraq bağlıdır: "Nəvələrimdən birinə Eminin adını vermişik. Əmisinin adını layaqətlə daşıyan Emin bu il Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasına qəbul olunub. Bu pulu onun və digər nəvələrimin təhsilinə xərcləyəcəyik".

### SABAHIMIZ - SOSİAL XİDMƏTLƏRİN HAMISI AVTOMATLAŞDIRILACAQ

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Musa Quliyev** əhalinin sosial müdafiəsinin qorunması sahəsində görülən işlər və aparılan islahatların əhaliyə göstərilən sosial xidmətlərin keyfiyyətinin artmasına səbəb olduğunu bildirir. Onun sözlərinə görə, pensiya sahəsində aparılacaq islahatlar - pensiya təyinatı prosedurunun elektronlaşdırılması əhaliyə göstərilən xidmətlərdə məmur-vətəndaş təmasının aradan qaldırılmasına və şəffaflığa tam nail olunmasına gətirib çıxaracaq.

Deputat qeyd edir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə yeni rəhbər təyin olunandan sonra bu qurumda çox ciddi islahatlar gedir: "Xüsusən də əhaliyə göstərilən sosial xidmətlərin elektronlaşdırılması, operativləşdirilməsi və bu sahədə vətəndaşlara dəstək verilməsi istiqamətində dünyanın ən qabaqcıl təcrübələri öyrənilir və tətbiq edilir". Belə təcrübələrdən biri bu ilin sonunda təqdim olunacaq.

### DOST-LARIMIZIN SAYI ARTACAQ

Sosial müdafiə sistemində vətəndaşları gözləyən xoş yeniliklərdən biri də DOST mərkəzlərinin yaradılması ilə bağlıdır. Yeni yaradılacaq Dayanıqlı və Operativ Sosial Təminat - DOST Agentliyi və mərkəzləri əhalinin məmnunluğunu təmin edəcək. Agentlik Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən yaradılır.

DOST layihəsinin həyata keçirilməsi ölkəmizin yeni brendini formalaşdıracaq. Bu mərkəzlər sosial sahədə "ASAN xidmət"in analoqu olacaq.

Sözügedən mərkəzlərdə nazirliyin həyata keçirdiyi 124 xidmətin hər biri - əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər xidmətlər vətəndaşa "bir pəncərə" prinsipi üzrə rahat və çevik şəkildə təqdim olunacaq. Xidmətlərin əksəriyyətini vətəndaş dərhal, yerindəcə almış olacaq. Araşdırma tələb edən xidmətlərlə bağlı isə ən qısa müddətdə qərar veriləcək və vətəndaş bu haqda məlumatlandırılacaq. Daha insanların bir çox sosial xidmətlər - pensiya, müavinət, uşaq pulu, sosial sığorta və digər məsələlərlə bağlı qapı-qapı düşüb sənəd toplamasına ehtiyac qalmayacaq. Eləcə də işsiz və işaxtaran şəxsə mərkəzdə onun üçün bütün mümkün məşğulluq xidmətləri təqdim ediləcək və seçiminə uyğun təminat həyata keçiriləcək. Həmçinin reabilitasiya, sosial sığorta münasibətləri, sosial xidmətə cəlbolunma və digər sahələr üzrə belə xidmətlər göstəriləcək. Bir sözlə, bu mərkəzlərin yaradılması ölkəmizdə məşğulluq, əmək, sosial müdafiə və təminat sahələrində idarəçilik və əhaliyə xidmətlər sisteminin innovativ əsaslar üzərində inkişafına, keyfiyyətcə tam yeni mərhələyə daxil olmasına hesablanıb. Layihə çərçivəsində könüllülərin cəlb olunacağı "Gənc DOST" proqramı da həyata keçiriləcək.

Nazirlik tərəfindən vətəndaşların işini asanlaşdırmaq məqsədilə "e-sosial" internet portalı da yaradılıb. Burada dövlət sosial xidmətləri ilə bağlı nazirliyə müraciətlər əsasında müxtəlif məlumatlar (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya və s.) toplanılıb.

DOST mərkəzi ilkin olaraq pilot layihə formasında Bakının Yasamal və Səbail rayonlarında reallaşdırılacaq. Bunun üçün inzibati bina da inşa olunur. 2019-2020-ci illərdə paytaxtdakı agentlik və mərkəzlərin sayı 5-ə çatdırılacaq. Paytaxtla yanaşı, bu iş regionlarda da həyata keçiriləcək. Ümumiyyətlə, 2019-2025-ci illərdə ölkədə 30 mərkəzin açılması gözlənilir.

Beləliklə, tarixi 100 ilə dayanan Azərbaycanda sosial müdafiə sisteminin dünəni, bu günü, eləcə də sabaha hədəflənən fəaliyyət proqramları bu sistemin təsir dairəsinə düşən hər bir vətəndaşımızın sosial-iqtisadi həyat şəraitinin günü-gündən daha da yaxşılaşdırılacağını söyləməyə tam əsas verir.

**Məğrur Əliyev**

**Yazı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**